Xalq və vətən obrazlarının etnoqrafik mənzərəsi

# Əli Rza Xələflinin liro-epik poemalarında



Nizami MƏMMƏDOV

İş elə gətirib ki, bu dəfə tanınmış naşir, şair, nasir və publisist Əli Rza Xələflinin "Dağlarda duman qaldı" poemalar silsiləsi ilə bağlı qənaətlərimizi oxucular və ədəbi tənqid təsərrüfatımızda qələm işlədənlərlə bölüşməyi qərara almışıq.

Əli Rza Xələflinin bədii yaradıcılığı üç onillikdən artıqdır ki, Azərbaycan mətbuatında və nəşrlərində özünə öncül mövqe qazanmaqdadır. Bəri başdan deyək ki, yaxından tanıyıb, yaradıcılığını izlədiyim ilkin zamanlardan onun bədii-poetik, ictimai-ədəbi fikirlər ortaya qoyarkən söz dalınca ucuz axtarışlara getmədiyinin şahidi olmuşam. Bəzən "Kredo" qəzetinin redaksiyasına daxil olarkən onun hər hansı bir mövzu ilə bağlı fikrlərini kompütерə məntiqlə birbaşa diktə etməsini görmüşəm. Təfəkküründə ardıcıllıq, məntiqi sistem, konseptuallıq olduğuna inanmışam. Əli Rza Xələflinin publisistik düşüncəsi ilə poetik təfəkkürü daim bir-birini tamamlamaqla görümlü bədii nümunələrin ortaya çıxmasına şərait yaradıb. Əli Rza "Kredo"da "Redaktordan" kolonkasında ictimai-siyasi və mədəni-ədəbi proseslərə, ayrı-ayrı sənət adamlarının yaradıcılığına həssaslıqla yanaşmaqla, dominant məsələləri ön plana çıxarmağa çalışıb.

Elə buna görə də imkan olduqda biz də Əli Rza Xələflinin yaradıcılıq rəngarəngliyi ilə bağlı mülahizələr ortaya qoymağa hazır olmuşuq. Çünki biz onun kimi çoxcəhətli yaradıcılıq imkanlarına malik təfəkkür daşıyıcısını şəxsən, onun mənəviyyata, düşüncəyə, həyat baxışlarına, əxlaq dəyərlərinə, azərbaycançılığa və türkçülüyə, vətənçiliyə və dövlətçiliyə bağlı olduğunu, bədahətən əsərlərindən fraqmentlər oxuyub, fikirlərini uğurla mikromətn və makromətn kontekstində uzlaşdırmağına qibtə etmişik. Buna görə də bu yazımda onun şəxsiyyətini də, yaradıcılığını da incələməyi bacardığım qədər araya-ərsəyə gətirə biləcəyimdə inamlıyam. Bu yazıda biz müəllifin bütün yaradıcılıq arsenalına nəzər salmaq yox, yalnız yeni kitabına daxil etdiyi poemalardan və onların məziyyətlərindən bəhs edəcəyik.

Əli Rza Xələflinin yaradıcılığında epik zamana və süjetyaratma xəttinə daim geniş yer verilir. Yəqin elə buna görə də həyatda baş verən rəngarəng gedişlər, hadisə və olaylar onun yaradıcılıq stixiyasının mahiyyətinə ustalıqla oturdulur. Bəs belədirsə şairin "Dağlarda duman qaldı" poemalar silsiləsində sənətkar hansı mətləbləri özünün yaradıcılıq kredosu kimi nəzərdən keçirməyə can atır?! Bəri başdan bildirək ki, bu məcmuədə vahid süjet xətti və mövzu adı altında təqdim edilən əsərlərin apafeozunu Vətən məhəbbəti, Yurd həsrəti, Azərbaycan adlı bir məmləkətin monumentallığı, türk etnik düşüncəsinin birliyi, Azərbaycan əsgərinin qəhrəmanlığı, xalqımızın yenilməzliyi və Ermənistan-Azərbaycan müharibəsinin dağıdıcı fəlakətləri və bir də türk üçün daha önəmli mahiyyət daşıyan ocağa sədaqət, ağsaqqala, ağbirçəyə hörmət və s. təşkil edir. Mövzu, motiv, obraz, məzmun baxımından bu poemalar silsiləsi özündə ənənəçiliyi əks etdirsə də, onların hamısında Əli Rza Xələflinin sənətkarlıq fərdiyyəti daha qabarıq şəkildə ortaya qoyulmaqdadır. Kitabda şairin iki fəxriyyə poeması "Söz doğrunun, düzündü" və "Könlümə yol aradım", "Bir çinar hekayəsi" xatirə poeması və "Hər ocağın öz işığı", "Karvan gəlir, yola bax", "Dönməzlik yolu", "Ölüm maşınının ağzında", "Bir atamın düz yolu" və "Bir acı xatirə" adlı əsərləri yer almışdır. Məlum olduğu kimi, poema janrı içində ciddi təhkiyə elementlərini daşımaqla hər hansı sosial-ictimai, tarixi-siyasi, mədəni-mənəvi problemləri özündə çevrələyir. Bütün bunlarla yanaşı, Əli Rzanın poemalarının daxilində həm də kamil qarşılıqlı struktur əlaqələri də gözə dəyməkdədir.

Kitab "Söz doğrunun, düzündü" fəxriyyə poeması ilə açılır. Müəllif əsərin infrastrukturuna elə bir epik zaman daxil edir ki, burada biz "Orxon-Yenisey boyu", "Xaqanlar hökmü", "Nizami yolu", "Hophopnamə", "Bustan" və "Gülüstan"dan keçərək, Nəsimini axtarır, Füzulini arayır, haqdan əlimizi üzməyib Allah sevgisiylə Allaha həmdəm olur, Allahın izini-irizini görməklə irəliləyir, Allahdan yardım almaqla, Allah sözünə işıq verdikcə Mövlanə Füzulinin ruhunun göylərdən baxdığını görür, yaşamın Allahı vicdan kimi qəbul etdiyinə baş əyir, Din pərdəsi altında qalanların içini xof yediyini, Xurafat dəyirmanında üyüdülənlərin baxışlarını qəbul etməyib, Həqiqətə keşik çəkənlərə doğru gedir, yaddaşında həkk olunanların köməyi ilə Yurd yerlərini - "Bənövşəli Diri dağı", "Gəyəni gəzir", "Qaradağı, Qarabağı vəsf eləyib", "Xudafərinə - Cəbrayıla", "Şuşa yolu ilə Kəlbəcərə üz tutur" və i. a. və s. Bununla belə, müəllif bütün məqamlarda arzularının, istəklərinin kədər əkib, dərd becərməsinə baxmayaraq, yolların daş üzündə fikir bitirib, sözü cücərdə-cücərdə, dağdan-bağdan yaza-yaza öz poetik fikir karvanının sarvanına çevrilir. Poetik misralarının köməyi ilə oxucunu qeyri-adi ecazkar bir aləmin yolçusuna çevirir. Hesab edirik ki, müəllifin "Söz doğrunun, düzündü" poemasına verdiyi ikinci nominasiya" "Sözün fəxriyyəsi" özünü süjet, mahiyyət, məzmun və deyim cəhətdən doğruldur. Görün Əli Rza sözü öz poetik düzümləri ilə hansı mərtəbəyə ucaldır:

Sözün Nizami yolu, "Hophopnamə" gücü var,
Başlasa da hərb ilə sonunda sülh ucu var.
Sözün çiçəkli yazı, qızıl payız köçü var,
Alovları qış ütən, buz sındıran yaydı söz.

... Həqiqət bir körpüdür - əyrilər baxar, keçməz,
Halallar haram yeməz, haramlar halal içməz.
Görə - görə kor olan doğrunu-düzü seçməz,
Neçə yatmış vicdana haray-həşir, haydı söz.

Əli Rzanın bu poemasında klassik üslubla çağdaş poeziyanın elementləri özünəməxsus şəkildə müəllifin yaradıcılıq baxışında bir ülfət, ünsiyyət, bir vəhdət təşkil edir. Əli Rza həm də eyni zamanda ünlü türk klassiklərimiz Yusif Xac Xacib Balasaqunlu, Şeyx Əhməd Yəsəvi, Nizami Gəncəvi, Mahmud Abdul Bakı, Mövlanə Rumi və digər görkəmli öz sərrafları kimi poetik fikrə bir elitarlıq, zadəganlıq, kübarlıq gətirir, onu orta əsrlər poeziyasının donu ilə süsləyir.

Əli Rza Xələflinin poemalarında Allah, Tanrı, Yaradan, Haqq müxtəlif məqamlarda müxtəlif maraqlı çalarlar yaradır. Təkcə bəhs etdiyimiz bu poemada "Allah" ifadəsi şair tərəfindən 17 dəfədən çox işlənsə də, oxucuya hər dəfə o yeni anlamı, yeni konteksti göz önündə fərqli biçimdə canlandırmağa səy göstərir. Onun, yuxarıda qeyd etdiyimiz kimi, kitaba daxil etdiyi poemalarının mayasında dayanan ən başlıca obraz da, mövzu da, motiv də, qəhrəman da Vətəndir. O, burada Diri dağı da, Arazı da, Xudafərini də, Xələflini də eyni vüsətlə tərif edir.

"Könlümə yol aradım" fəxriyyə poemasında isə müəllif öz yaradıcılıq dəst-xəttinə sadiq qalmaqla yetərincə yadda qalan qanadlı ifadələr və aydın frazeoloji birləşmələrdən, atalar sözü və zərbi-məsəllərdən gen-bol istifadə etməklə, mürəkkəb epitetlərə, orijinal metaforik düzümlərə meydan verir. Bu poemada müəllifin öz daxilində həm ətraf aləmdə yer almış neqativ ünsür və faktorlarla mübarizə ön plana çıxarılır, həm də özünəməxsus yüksək tarixi, didaktik, qəhrəmanlıq pafosu görünür:

Ha gözlədim bir gələ taraza dura dünya,
Əyri əldə nizama bir təkan vura dünya,
Bu yıxılmış nizamı qaldıra, qura dünya,
Gəlməyən tarazından könlümə yol aradım.

Yaxud, görün burada şair poemanın digər bir məqamında sözün vəsfinə necə don biçir:

Öpdüm, oxşadım sözü, qönçələnsin, güllənsin,
Ruhumdan can verdim ki, cana gəlsin, dillənsin.
Misralar sıralanıb xəyalımdan keçdikcə,
İlhamım qanadlandı söz meyindən içdikcə.

Poemada Əli Rza xeyli məsələlərin çözümünü verir və həyata epoxal baxış sərgiləyir. Həyatın, dünyanın, yaşamın gərdişinə daha geniş və əhatəli kontekstdə yanaşır, özünəxas müdrikcəsinə kəlamları ilə sözə, fikrə yeni ilmələr, naxışlar vurur:

Yaşamağın yolunu bizdən əvvəl bilən var,
Bizdən əvvəl dünyada ağlayan var, gülən var.

...Odur ki, hər addımda əcdadları yada sal.
Şirinindən pay gətir, öz sözünü dada sal.

...Söz bilənlər, aqillər yazıblar oxumusan,
Düşüncəndə hikmətdən xalılar toxumusan.

Sən də yaz, görən desin - havayı yaşamadın,
Ömür adlı yükünü gərəksiz daşımadın.

Müəllif üçün "Dünyanın söz üzü", "Söz ucalığı" hər şeyin fövqündə dayanır. Bu poemada Əli Rza həm də öz bioqrafiyasını, yaradıcılığının mahiyyətində sözün durduğunu var gücü ilə nümayiş etdirməyə çalışır. O, bu əsəri ilə ruhundakı "Əbədi həyat arzusu"nu, "Vaqifin poetik sirrini", sözündə "Sözlə Qanın" tərəziliyini, "Azadlığın qanı", "Araz ağrısı", "Həsrətdən üzü bəri" nə varsa hamısını, ilham pərisinin "Sözün yeddi gözəli" olmasına, "Həyat dastanı", "Dünyanın yazana qalmasını" və s. yanaşı, həm də sözün tənqidini, "Tənqidçi idealını" yüksək qiymətləndirməklə sözdən çələng toxuyanlara, poetik fikirin müxtəlif tərəflərinə dəyər verənlərə və başqalarına öz ucalığından və söz ucalığından yanaşmağa çalışır. Bu poemada epika, lirika, bioqrafizm və avtobioqrafizm elementləri bir-biri ilə üzvi şəkildə birləşir. Müəllifin nəinki tarixi, əfsanəvi, epik obrazlara, dastanlara olan münasibəti, həm də çağdaş dövrdə yazıb yaradan yazıçı, şair, publisist, tənqidçilər, ədəbiyyat tarixçiləri, türkoloq alimlərlə olan isti münasibətləri nəzərə çarpdırılaraq poemanın infrastrukturuna uğurla gətirilir. Burada yazıçı Ənvər Nəzərli, eposşünas İslam Sadıq, publisist-jurnalist Elçin Kamal, türkoloq Aydın Abi Aydın, bədii-publisistikada yeri olan Sahib Abdulla, Əsgər Əfsər oğlu, Məsaim, Elçin Əlioğlu, Xeybər Göyyallı, Firidun Rəsulov, Nəzirməmməd Zöhrablı, aşıq yaradıcılığı tədqiqatçısı İlham Məmmədli, ruhuna rəhmət dilədiyi şair Zəlimxan Yaqub, görkəmli dilçi alim, professor Qəzənfər Kazımov, ədəbiyyatşünas Qurban Bayramov, mətnşünas Aslan Salmansoy, dilçi-türkoloq İsmayıl Kazımov, ədəbiyyat tarixçisi İslam Qəribli, ədəbiyyatşünas Nizaməddin Şəmsizadə, Asif Rüstəmli, ədəbiyyatşünas-türkoloq Nizami Tağısoy, dilçi alim Nizami Cəfərov, dəyərli poetik fikir sahibləri Söhrab Tahir və Nəriman Həsənzadə, İraq-Kərkük şifahi xalq ədəbiyyatı toplayıcısı və tədqiqatçısı Qəzənfər Paşayev, ədəbiyyatşünas-alim İsa Həbibbəyli, yazıçı Hüseynbala Mirələmov, ərəb dili üzrə mütəxəssis, mütərcim İntiqam Qasımzadə, gənc şair Vüsal Nuru, tarixçi alim Dirili Yusif, Nəriman Mahmud, əzizi Cavadoğlu, istedadlı yeniyetmə Sevindik Nəsiboğlu, yazıçı-dramaturq Firuz Mustafa, ədəbiyyatşünas Şirindil Alışanlı, Tahirə Həsənzadə, alim - dostu Nazim, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, naşir Şəddat Cəfərov, yazıçı-publisist Xanəli Kərimli, nasir Meyxoş Abdullah, professor Yədulla Ağazadə, professor Sabir Bəşirov, şair Vüqar Əhməd, tənqidçi Rüstəm Kamal, eposşünas Kamil Allahyarlı, tənqidçi Vaqif Yusifli, eposşünas Seyfəddin Rzasoy, Seyfəddin Mənsumoğlu, publisist Sərvaz Əsgərli, Tamella Məmmədzadə, şair İsmayıl İmanzadə, Namaz Manaflı, şair Mirzə Mirimli, alim Fərzəli Həsən, publisist Tamxil Ziyəddinoğlu, şairlər Ənvər Çingiz oğlu və Az TV-nin redaktoru Avdı Qoşqar və digər tanınmış alim, şair, yazıçı və tədqiqatçılar poemanın məzmun-kompozisiya kamilliyini təmin edir.

(Davamı 9-cu səhifədə)

# Xalq və vətən obrazlarının etnoqrafik mənzərəsi

## Əli Rza Xələflinin liro-epik poemalarında

*(Əvvəli 8-ci səhifədə)*

Digər bədii-poetik məziyyətləri ilə yanaşı, bu poemanı həm də ensiklopedik məlumat kitabı kimi də nəzərdən keçirmək mümkündür. Poema tarixliyi, bədiiliyi və digər keyfiyyətləri ilə yanaşı, həm də özünəməxsus etnoqrafik nümunələrlə yetərincə zəngindir. Bəziləri "Könlümə yol aradım" poemasında yer almış bu elementlərə adi etnonimlərin, toponimlərin konstatasiyası kimi də nəzər sala bilər. Lakin, fikrimizcə, burada müəllifin məqsədi daha çox bu janrın köməyi ilə yeni bir mənzərə yaratmağa can atmaqdır.

Əli Rza Xələfli dostları haqqında danışarkən özünü onların bir parçası hiss edərək

Bəlkə heç mən olmazdım sizsiz dünyam solsaydı,
Bir dəyər kəsb etməzdi, sözsüz dünyam olsaydı

- deməklə şair özü ilə sözünü və onlarla birgə varlığını dostlarına bağlayır. Poemada ara-sıra Boz Qurd, Koroğlu, Suqovuşan, Araz, Kür, Diri dağ, Qız qalası, Suad dərəsi, Qurbani - söz qalası, Zülfi nənə, Qara Vəzir, Xudafərin, Tumaslı Abdulla, Pərim yandı, Yanıqlı Abdulla, Şah Xətai, Gəncə, Süleyman Becan, Qala-Vətən, müdrik Mazan nənə, Amur, Aral, Türk soyu, Qarabağ, Dədə Qorqud, Ulu Türk, Xarı bülbül və s. bu kimi ifadələrin və onlara bağlı misraların arxasından doğma türk tariximiz, Ana Vətənimiz bizlərə əl eləməkdədir. Elə buna görə də, poemanın epiloqunda şair fikirlərinə aşağıdakı kimi sonuc verməyi üstün tutur:

Bu dağılan nizamı görəm bir taraz üstə,
Qanını halal biləm yurduma muraz üstə,
Yeriyim Vətən sarı, vurulum Araz üstə,
İçim əcəl camını - şərbət yol açar bizə!

- deyə nida edir. Poemanın mətnində müəllifin özünəməxsus sualları ortaya çıxır. O, hər bir kəsdən atasının, babasının, ulu babasının kim olması, dünyaya gəlişi ilə nələr etməsini - hansı bağı becərib, hansı meyvəni dərməsini sual edir. Və bəzən buradan öz izi, adı ilə bağlı nə qalacağı üzərində düşüncələrini dilə gətirir:

Baş daşımın yazısı pozulmaz, əbədidir,
Əbədi olan dünya yozulmaz, əbədidir.
Yazıya pozu yoxdur - söz qalıb atalardan -
Atalardan qalan söz, uzaqdır xatalardan.

- deyib fikrini dolğunlaşdırmaqla atalar sözünün emosional təsirindən, böyük-kiçik dünyasının urvatından danışır. Elə buradaca söyləyək ki, Əli Rza Xələflinin poemalarında yer almış etnoqrafizmlər heç də yalnız folklor-etnoqrafik realilərini özündə birləşdirmir. Odur ki, Əli Rzanın poemalarında etnoqrafizm onun realist təhkiyəsinə xüsusi rəng qatmaqla şairin poetik dəst-xəttində və estetik sistemində önəmli rola malik olur. Əli Rzanın poemalarında etnoqrafik elementlər, hər şeydən öncə, həm də onun əsərlərinin bədii dilində özünü büruzə verir. Burada digər məqamlarla yanaşı, həm də xalq mərasim və ənənələrinin təsviri mətndən yaxşı görünür. Bundan başqa bu etnoqrafik elementlər əsərdə yer almış məişət və psixoloji mənzərələrin özünü də zənginləşdirir. Digər bir tərəfdən bu elementlər milli xarakterin təsvirində əhəmiyyətli mövqedə dayanır. Odur ki, Əli Rzanın poemalarının etnoqrafik əlamətlərində Azərbaycan xalqının mədəni-tarixi stereotiplərinin işığında milli şüur və təfəkkür tərzini və izlərini görmək mümkündür.

Şairin bütün həyat baxışları etnik kökə bağlılıqdan boy verməkdədir. Çağdaş dövrümüzün qarışıq, kələfinin ucunun itirildiyi bir mərhələdə yaşamasına baxmayaraq, cəmiyyətdə sosial-ictimai idealların deformasiyalara uğrayıb, dağıdıldığı bir dönəmdə müəllifin düşüncəsində etnoşəxsiyyət probleminin boy verərək dünyanın sabit sənət nümunələri əsasında strukturlaşması ilə çözülür. Söz etnoşəxsiyyətdən düşmüşkən elə buradaca etnik kökən məsələsinə toxunmaq istəyirik. Qeyd edək ki, etnik kökən və şəxsiyyətlərin insan həyatında mühümlüyü məsələsi hələ XX əsrin əvvəllərindən mədəni-fəlsəfi, düşüncədə xüsusən N.Berdyayev, A.İlyin, N.Trubetskoy və başqa bu kimi təfəkkür daşıyıcılarının əsərlərində qırmızı xətt olaraq keçməklə inkişaf etdirilmiş, onların fikrincə milli fərd olaraq hər bir kəs bəşər övladının tərkib hissəsi kimi dərk edilməlidir. Əli Rza Xələflidə daim bir tərəfdən öz mahiyyətindən kənarlaşmamaq, digər tərəfdən özünü Azərbaycan subetnosunun nümayəndəsi hiss etməklə əksər poemalarında bu etnosa malik olan keyfiyyətlərin ortaya qoyulması özünü təsdiqləməkdədir. Başqa cür desək, onun poemalarının milli xarakteri etnik kökə bağlılığı ilə özünü sübut etməkdədir. Fikrimizcə, Əli Rza Xələfli Azərbaycan poemasında türkçülük və azərbaycançılıq ənənələrini uğurla davam etdirməklə, özündən əvvəlki tarixi dönəmlərin möhürlərini də ortaya qoymaqda israrlıdır. Şair dini özünə - məxsusluğundan daha çox etnik özünəməxsusluğa geniş yer verir. Bu da nəticədə Ə.Xələfli yaradıcılığında etnik özünəməxsusluğun nəzərəçarpacaq dərəcədə konseptuallaşdırılmasına səbəb olur. Odur ki, müəllifin bu kitaba daxil edilmiş əsərlərində həm də mədəni arxetiplərin cəmini görmək mümkündür. Onun etnik arxetiplərinin köməyi ilə milli xarakterinin genotipi və fərdi etnopsixoloji xüsusiyyətləri bir-biri ilə ülfət bağlayır. Digər tərəfdən şairin yaradıcılığında ümumiyyətlə, poemalarında xüsusilə ortaya çəkdiyi problemlərin həllində optimizmə oriyentasiya ümidləri közərdir və bu poemanın aşağıdakı bəndlərində aşağıdakı görkəmini alır.




İstək qalxsa yuxudan, oyansa canımızda,
Dalğalı dəniz olsa Azərbaycanımızda,
Qarabağın ağrısı qaynasa qanımızda,
Xələfli onda bilər, qeyrət yol açar bizə.

Əli Rza bu poemasında son nöqtəni 27 iyun 2020- ci ildə qoymuşdu. O, zamanlar 44 günlük Vətən müharibəsinin başlanmasına düz üç ay qalırdı və düz üç ay sonra, yəni sentyabrın 27-də xilaskar Azərbaycan ordusu əsgərlərinin içində qələbə istəyi tuğyan edirdi. Azərbaycanımız nəhəng, təlatümlü dənizə dönərək, Qarabağ ağrısını qanında qaynadan şücaətli oğullarımız erməni qəsbkarlarına qarşı hücuma keçməklə məhz həmin gündən başlayaraq onları vətəndən qovmağa başlamışdılar.

Əli Rza Xələflinin digər, həm də o cümlədən "Hər ocağın öz işığı" poemasında maraqlı biçimli ibarələr və ifadələr poetik ahəng hisslərimizi dirçəldir. Onlar şairin üslub orijinallığının, bədii üslubunun rəngarəngliyinin dəyərli göstəricisi kimi hisslərimizə sığal çəkir. Məsələn, siz heç insanın içindən yanıb, hamar-hamar közərməsini, "qanının soğulub", bəbəyinin damar-damar közərməsini, yaxud "dərdin qəlbə yeriyib tumar-tumar közər"məsini görübsünüzmü?! Yaxud "Güllərlə güllələrin əbədi birliyini, Ağlamağın, gülməyin Arazlığını və Kürlüyünü eşidibsinizmi?! (s. 47-48). Eyni zamanda bu poemada Əli Rza poetik təhkiyəni bolşevizm və bolşeviklərin üzərinə tuşlamaqla lahıclı balası bolşevik Əlinin, Qasım İsmayılovun, otuzuncu illərdə xalqın başına gətirilən oyunların Gəncədə, Gədəbəy dağlarında, Goranboyda, Müdrik Cavad kişi, Ocaqqulu baba və başqalarının bu əsərinin episentrinə gətirilməsi ilə xalqımızın başına açılan bəlaların "özəl mənzərəsi" ilə üz-üzə, göz-gözə dayanır, epik vüsətin yüksələn bədii trayektoriyada getdiyini izləyə bilirsiniz.

"Karvan gəlir, yola bax" poemasında şairi yenə də narahat edən problemlər tarixən xalqımızın, məmləkətimizin, ellərimizin, obalarımızın yaşadığı çətinliklərin ümumi panoram fonunda cərəyan etdiyini görürsünüz. Burada şairin öz xəyalları ilə "dilləşməsi", uca, ilahi sözün onun ruhuna yayılması, xatirələrinin "şeyda bülbüllər kimi dil açması" hesabına gedir. Elə buna görə də onun gözündə keçmişlər cana gəldikcə hər sözü qana gəlir, gələcəyin köksünə sığınmaqla içində tarix boyda xatirələr həm dirilir, həm də durulur. Bu poemada şairin fikir karvanına düzüm verən, onun karvanını çəkib uzaqlara aparan digər köməkçi obrazlarla yanaşı, həm də Qara Nər obrazı səciyyəvidir. Qara Nər, Cavan Nər, Ağca Maya, Cavad, Kərəm, Salman, Müdrik Məmməd və başqalarının vəsfi adlarının tarixə həkk olunması ilə oxucuda maraqlı assosiativ hisslər yaradır. Elə buna görə də Xələfli belə adların böyüklüyündən danışarkən fəxarət hissi ilə deyir:

Ad insanın şərəfli yolunun çırağıdır,
Hər çırağın işığı, özü yol sorağıdır...

... Məmmədlər gəlib, gedib bu dünyadan soraqsız,
Yaddaşlarda kitabdır, yollu Məmməd varaqsız.

Bu poemada nəzərimizi cəlb edən digər mühüm məqamlardan biri də odur ki, müəllif öz epik düşüncəsini qeyri-adi emotiv hisslərə bələyir. İnsan hisslərini yerindən oynadan emotiv psixi və psixoloji yön, gediş və ibarələr Əli Rzanın poemalarında onun bədii poetik dünyasının subyektiv əks-sədası kimi maraqlıdır və müəllif bunların hamısını özünün fərdi ifadəli komplekslərin köməyi ilə uğurla təqdim edir. Poemada belə emotiv ifadələr daim artan intensivliklə inkişaf edir. Əli Rzanın əksər poemalarında emosiyalar oxucunun onun əsərlərində yer almış tarixi və bədii dünyanın hadisələrini dərk etməyə, onlar üzərində müvafiq təhlillər aparmağa sövq edir. Bütün bunların köməyi ilə Əli Rza Xələfli oxuculara ərməğan etdiyi poetik məcmuəsində onlar qarşısında özünü əvvəlki görüşlərindən daha fərqli və yeni ampuluada təqdim etmək imkanı qazanır. Ümumiyyətlə, Əli Rza Xələflinin bədii publisistikası və poetik yaradıcılığı ilə yaxından tanış bir ədəbiyyatşünas-tənqidçi kimi bildirmək istəyirik ki, şairin özü xarakter etibarı ilə emosinal olan müəllif kimi, həm də bədii yaradıcılığında daim oxucu və dinləyicilərinin emosional aləminə təsiretmə bacarığını özündə yetərincə formalaşdırmış poetik fikir daşıyıcılarındandır.

Xələflinin bu kitaba daxil etdiyi digər poemalarının da bədii məziyyətləri və keyfiyyətləri ilə bağlı xeyli çeşidli mülahizələr irəli sürmək mümkündür. Düşünürük ki, onların rəngarəngliyi ilə bağlı oxucuların özlərinin rəy bildirməsi daha maraqlı və orijinal təsir bağışlaya, müəllifin sənət aləminin fərqli düzüm və duyum elementlərini ortaya qoya bilər. Nəticə olaraq bildiririk ki, bu poemalar silsiləsi ilə Əli Rza Xələfli öz tələbkar oxucuları ilə yenidən onların estetik tələblərinə cavab verən bir poetik nümunənin araya-ərsəyə gəlməsinə imza atıb.

...«Dağlarda duman qaldı» poemalar silsiləsindən bir qədər fərqli olaraq avtobioqrafik sızmalarla qələmə alınmış iki poema da bu kitabda yer alıb; «Anamın nağılı» və «Bir çinar hekayəti». Bu əsərlərin hər birinin ayrıca təhlil müstəvisinə çəkilməsi bu günün ziyalısının yaşadığı hisslərin hansı ağrılarla müşayiət olunduğunu görmək baxımından çox vacibdir.

Avtobioqrafik poemalar kimi təqdim olunan bu əsərlər bir çox cəhətdən kitabın birinci hissəsindən fərqlidir. Hiss olunur ki, bu əsərlər qələmə alındığı vaxt zaman baxımından da həmin əsərlərdən ayrılır. Çünki yazı tərzi, üslub, janrı ifadə üçün seçilən forma kifayət qədər fərqlidir. Onu da qeyd etməyi vacib hesab edirəm ki, bu iki avtobioqrafik sızıntılarla yazılmış əsərdə kifayət qədər müəllif yanğısı oxucunu qarsmaq, yandırmaq gücündədir. Mən kitabın ilk əlyazma (bilgisayar) nüsxəsini xüsusi yanğı ilə oxudum. Mənə elə gəlir ki, şair Əli Rza Xələflini həm də epik-lirik poemalar müəllifi olmaqdan başqa, onu poetik roman üstadı kimi də xarakterizə etmək olar.

*20.10.2022*